# PROKURORLUQ ORQANLARINA QULLUĞA QƏBULLA BAĞLI ELAN EDİLMİŞ MÜSABİQƏNİN TEST İMTAHANI MƏRHƏLƏSİNDƏ MÜVƏFFƏQİYYƏT QAZANMIŞ NAMİZƏDLƏRİN NƏZƏRİNƏ



Baş Prokurorluq tərəfindən Dövlət İmtahan Mərkəzi ilə birgə 10 oktyabr 2023-cü il tarixdə Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq elan edilmiş sayca 25-ci müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmiş və imtahanın nəticələri Baş Prokurorluğun (https://genprosecutor.gov.az/az/post/6887) rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Həmin test imtahanında müvəffəqiyyət qazanmış namizədlər aşağıda qeyd olunan sənədləri 16 oktyabr 2023-cü il tarixdən 27 oktyabr 2023-cü il tarixədək hər gün (həftənin şənbə və bazar günləri istisna olmaqla) saat 09:30-dan saat 18:00-dək Baş Prokurorluğun inzibati binasının Qəbul otağında (Bakı şəhəri Nigar Rəfibəyli küçəsi 7) Kadrlar idarəsinin əməkdaşına təqdim etməlidirlər:

" 3?4 sm ölçüdə 4 ədəd ağ fonda rəngli fotoşəkil;

" əmək kitabçasının qeydlər aparılmış səhifələrinin notariat qaydasında və yaxud iş yeri üzrə təsdiq edilmiş surəti (hazırda işləyən və ya əvvəllər işləmiş namizədlər);

" yaşadığı ünvan üzrə poliklinikadan sağlamlıq barədə (Forma № 086-poliklinikanın möhürü ilə təsdiq olunmuş fotoşəkilli), habelə ruhi-əsəb və narkoloji dispanserlərdə qeydiyyatda olub-olmaması barədə arayışlar;

" yaşadığı ünvan və ailə tərkibi haqqında arayış;

" yaşadığı ünvan üzrə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumlarında qeydiyyatda olması və həqiqi hərbi xidmət keçməsi barədə arayış;

" hərbi biletin qeydlər aparılmış səhifələrinin notariat qaydasında təsdiq edilmiş surəti;

" həmçinin ilkin sənəd qəbulu zamanı elektron poçt vasitəsilə göndərilmiş sənədlər (müvafiq ərizənin, kadrlar uçotunun şəxsi vərəqəsinin və tərcümeyi-halın əslini, şəxsiyyət vəsiqəsinin, ali təhsil haqqında diplomun, diploma əlavənin (qiymət cədvəlinin), xarici diplom olduğu halda onun Azərbaycan dilinə tərcüməsinin və tanınması barədə şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surətlərini, və 4?6 sm ölçüdə 4 ədəd ağ fonda rəngli fotoşəkil).

Əlavə suallarla bağlı 437-28-56, 361-00-76, 361-00-77, 361-00-78, 361-00-80 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.

# NOBEL SÜLH MÜKAFATI AZƏRBAYCANLIYA VERİLDİ



Güney Azərbaycandan olan hüquq müdafiəçisi Nərgiz Məhəmmədi 2023-cü il üzrə Nobel Sülh mükafatına layiq görülüb. Qaynarinfo xəbər verir ki, bu barədə Norveç Nobel Komitəsindən bildirilib.

Qeyd edək ki, Nərgiz Məhəmmədi 1972-ci il aprelin 21-də Güney Azərbaycanın Zəncan şəhərində anadan olub. Tanınmış jurnalist və hüquq müdafiəçisidir. İranda bir sıra KİV-də işləyib.

2022-ci ilin sentyabrında İranda başlayan etiraz aksiyalarına ilk qoşulanlardan və fəal iştirakçılarından olub. O, 16 il müddətinə azadlıqdan məhrum edilib.

Nərgiz Məhəmmədiyə 2022-ci il üzrə "Sərhədsiz Reportyorlar" Təşkilatının "Cəsarət Mükafatı" verilib. O, 2023-cü ilin yanvarında Olof Palme mükafatına layiq görülüb. Bu il mayın 3-də İranın məhbus jurnalistləri Nərgiz Məhəmmədi, Nilufər Həmidi və İlahə Məhəmmədi BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatının (UNESCO) Gilyermo Kano adına Dünya Mətbuat Azadlığı Mükafatına layiq görülüblər.

Xatırladaq ki, 2003-cü ildə güney azərbaycanlı Şirin İbadiyə Nobel Sülh mükafatı verilib. Mükafat ona demokratiyanın inkişafı və insan haqlarının, xüsusilə də İranda qadın və uşaqların hüquqları uğrunda mübarizəyə görə layiq görülüb.

# VİKTOR ORBAN: "YAŞIL DƏHLİZ Aİ ÜÇÜN HƏYATİ ƏHƏMİYYƏT KƏSB EDİR"



Bizim sıx əməkdaşlığımız olmadan Avropanın enerji sistemini, Avropa iqtisadiyyatını modernləşdirmək olmaz.

Trend xəbər verir ki, bunu Macarıstanın Baş naziri Viktor Orban Tbilisidə Gürcüstan hökumətinin rəhbəri İrakli Qaribaşvili ilə keçirdiyi birgə mətbuat konfransında söyləyib.

V.Orban deyib ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın birgə reallaşdıracağı infrastruktur əməkdaşlıq proqramları - Yaşıl dəhliz layihəsi Aİ üçün həyati əhəmiyyət kəsb edir.

"Avropa İttifaqı üçün bu, nəhəng layihədir və bütün iştirakçı dövlətlər üçün gələcəkdə uzun illər iqtisadi artım mənbəyi olacaq", - deyə V.Orban vurğulayıb.

# PƏRVİZ ŞAHBAZOV "RUSİYA ENERJİ HƏFTƏSİ" ÇƏRÇİVƏSİNDƏKİ MÜZAKİRƏLƏRDƏ İŞTİRAK EDİB

***Energetika naziri Pərviz Şahbazov Moskvada keçirilən "Rusiya Enerji Həftəsi" 6-cı Beynəlxalq Forumunda iştirak edib. Nazir Rusiya Federasiyası Baş nazirinin müavini Aleksandr Novakın da qatıldığı sessiyada turbulentlik dövründə qlobal neft -qaz bazarı və Azərbaycanın qaz təchizatında prioritetləri ilə bağlı fikirlərini bölüşüb.***




Qlobal enerji arxitekturasının yenidən dizayn olunduğu müasir reallıqlarda diversifikasiyanın əhəmiyyətinin artdığını vurğulayan nazir deyib ki, şaxələndirmə istehlakçı ölkələr üçün mənbələrin, enerji ölkələri üçünsə marşrutların, bazarların müxtəlifliyidir.

Energetika naziri ölkəmizdə bütün növ enerji resurslarının işlənilməsi və müxtəlif istiqamətlər üzrə dünya bazarlarına çıxarılmasının hər zaman paralel həyata keçirildiyini, nəticədə Azərbaycan qazının regional və Avropa bazarlarına tədarük olunduğunu qeyd edib: "Azərbaycan qazı hazırda 7 ölkəyə nəql edilir. Cənub Qaz Dəhlizinin genişlənməsi, Həmrəylik Halqası və digər təşəbbüslər təchizat coğrafiyasının genişləndirilməsi perspektivi yaradır. Burada əlaqələndirilmiş fəaliyyətə və geniş əməkdaşlığa ehtiyac var."

Türkiyənin uzun illər Azərbaycan qazının ən böyük bazarı olduğu və yeni bazarlara doğru planlarda da ölkəmizin vacib tərəfdaşı olduğu qeyd edilib.

Nazir, həmçinin neft-qaza mövcud münasibəti enerji təhlükəsizliyi ilə yanaşı, ətraf mühit üçün də problemlərə yol açan, enerji bazarlarında qeyri-sabitliyi artıran yanaşma kimi dəyərləndirib. "Neft-qazdan tamamilə imtina 85%-i karbohidrogenlərdən, 55%-i neft-qazdan ibarət mövcud enerji sisteminin az bir vaxtda transformasiyasının və enerji trilemmasının həlli deyil. Enerji təhlükəsizliyi, iqtisadi əlçatanlıq və ekoloji davamlılıq nəzərə alındıqda enerji keçidi kifayət qədər uzun bir prosesdir. Balanslaşdırılmış enerji sisteminə nail olmaq üçün neft və qaz sahəsinə investisiyaların davam etdirilməsi zərurəti şübhə altına alınmamalı, paralel olaraq bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməlidir. Məhz özünün və tərəfdaşlarının enerji təhlükəsizliyini təmin etmiş ölkələr düzgün, rasional enerji keçidi siyasət həyata keçirə bilirlər", deyə nazir əlavə edib.

# MİLLİ MÜDAFİƏ UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ ADPU-DA OLUB





Cari ilin fəaliyyət planına uyğun olaraq gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması və onlara dövlətçiliyə sədaqət hisslərinin təlqin edilməsi məqsədilə tələbələrlə keçirilən görüşlər davam edir. Plana əsasən Milli Müdafiə Universitetinin (MMU) nümayəndə heyəti Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tələbələri ilə görüşüb.

Tədbirdə əvvəlcə xalqımızın Umummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib.

Görüşdə gənc nəslin milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində maarifləndirici söhbətlər aparılıb.

Tələbələrə hərbi qulluqçularımızın döyüş hazırlığı, əsgər və zabitlərimizin gündəlik fəaliyyəti haqqında videoçarx təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.

ADPU-nun professor-müəllim heyətinin də iştirak etdiyi görüşdə elm və təhsil sahəsində əməkdaşlıq haqqında bir sıra müzakirələr aparılıb.

Sonda birgə xatirə fotosu çəkdirilib.

# GÜRCÜSTAN AZRBAYCANIN STRATEJİ TRFDAŞIDIR

Gürcüstan və Azərbaycan arasında artıq uzun illərdir ki, qarşılıqlı faydalı əməkdaşlıq və etibarlı müttəfiqlik əlaqələri mövcuddur. Bu əlaqələrin təməlində ölkələrimiz və xalqlarımız arasında yüz illərdən bəri mövcud olan mehriban qonşuluq və qardaşlıq münasibətləri durur. Oktyabrın 8-də dövlətimizin başçısı növbəti dəfə Gürcüstanda işgüzar səfərdə olub.

Səfər zamanı Tbilisi şəhərində mətbuata bəyanatlarla çıxış edən Azərbaycan Prezidenti cənab İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili xalqlarımız arasında sıx dostluq və qardaşlıq münasibətlərinin önəmini qeyd etmiş və çox qədim tarixə malik olan bu münasibətlərin müasir dövrümüzdə artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıblar.

Bu fikirləri mətbuata açıqlamasında Milli Məclisin deputatı Kamaləddin Qafarov səsləndirib.



"Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Azərbaycan-Gürcüstan münasibətlərinin müasir formatda formalaşmasında bu iki qonşu respublikaya həm sovet dönəmində, həm də müstəqillik illərində rəhbərlik etmiş Heydər Əliyev və Eduard Şevardnadzenin arasında mövcud olmuş şəxsi münasibətlər müstəsna təsir göstərmişdir. Xalqlarımız üçün ən ağır dövrdə, məhz onların liderliyi sayəsində həm Gürcüstan, həm Azərbaycan inamla müstəqilliyə doğru addımlamağa, inkişaf etməyə başlayıblar", - o qeyd edib.

K.Qafarov bu amilin ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi baxımından xüsusi önəm kəsb etdiyini bildirib:

"Prezident İlham Əliyevin öz çıxışında qeyd etdiyi kimi, Azərbaycan ilə Gürcüstan arasında olan dostluq və əməkdaşlıq əlaqələri bu gün Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verir. Bu gün beynəlxalq aləmdə formalaşan geosiyasi vəziyyətin fonunda enerji təhlükəsizliyi məsələləri təkcə Avropa İttifaqı üçün deyil, bütün ölkələr üçün ön plana çıxır. Bu gün ölkələrimizi energetika sahəsində ənənəvi istiqamətlərdən başqa "Yaşıl enerji dəhlizi" layihəsi birləşdirir. Bu sahədə də Gürcüstan və Azərbaycan Avropa ölkələri ilə sıx əməkdaşlıq edir və yaxın aylarda bu layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Ondan sonra konkret işlərə start veriləcək.

"Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək bütün tərəfdaş ölkələrin enerji təhlükəsizliyini daha da gücləndirəcək. Dövlətimizin başçısı ölkəmizin Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirakının mümkünlüyünü də qeyd etdi. Nəqliyyat sahəsində əməkdaşlığın yaxın perspektivləri barədə önəmli fikirlər səsləndirildi. Xüsusi olaraq qeyd olundu ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da Orta Dəhlizin güclənməsinə xidmət göstərəcək".

Deputat Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanmasının vacibliyi barədə ifadə etdiyi fikirlərin Cənubi Qafqazda davamlı sülhə və inkişafa nail olmağın real formulu olduğunu qeyd edib:

"Möhtərəm dövlət başçımız öz çıxışında Azərbaycanın üç il bundan öncə Vətən müharibəsində əldə etdiyi tarixi Qələbə ilə özünün ərazi bütövlüyünü bərpa etməklə, həmçinin keçən ay keçirdiyi antiterror tədbirinin nəticəsi kimi bütün ölkə üzrə suverenliyini təmin etməklə Cənubi Qafqazda davamlı sülhə və iqtisadi inkişafa nail olmaq üçün unikal imkanlar yaratdığını vurğuladı. Qeyd olundu ki, regionda sülh hələ ki, tam bərqərar olunmayıb. Lakin buna nail olmağın artıq vaxtı çatıb.

Bunun üçün Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzərində fəal çalışmaq lazımdır. Buna nail olunacağı təqdirdə Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq. Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər və bir çox sahələr üzrə bu əməkdaşlıq çox uğurlu ola bilər. Ölkəmiz Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesinə öz dəstəyini göstərməyə çalışan dövlətlərin səylərini alqışlayır.

Cənab Prezident İlham Əliyev tarixi əlaqələr və coğrafi amil nəzərə alınaraq bu missiyanın Gürcüstan tərəfindən yerinə yetirilməsinin daha məqsədəuyğun olduğunu qeyd etdi. Heç şübhəsiz, bütün regional məsələlərin bilavasitə üç Cənubi Qafqaz ölkəsinin özləri tərəfindən həll edilməsi xalqlarımızın dinc və sabit gələcəyinə möhkəm zəmin yarada bilər".